## Azərbaycan Ədliyyəsi – 100

# Məhkəmə-hüquq islahatları praktik nəticələr verir

**❒ Bir əsrin zirvəsindən keçmişə nəzər salarkən müstəqil Azərbaycan dövlətinin yaradılması və inkişafında əvəzsiz rolu olan Azərbaycan Ədliyyəsinin mübarizələrlə zəngin şanlı tarixi göz önündə canlanır, qəlbimizdə böyük qürur və iftixar hissi doğurur.**

Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək Ədliyyə Nazirliyi dövlətimizin yarandığı gün - 1918-ci il may ayının 28-də təsis edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı qərarlar qəbul olunmuş, 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Cəzaçəkmə yerlərində aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, bir sıra zəruri qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

1920-ci ildə Sovet Rusiyasının XI ordusu Azərbaycanı işğal etdikdən sonra İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. On üç il sonra məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmişdir. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə olunmuş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil edilmiş və bununla da Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmiş və onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır. Azərbaycan ədliyyəsi ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra da ulu öndərin diqqətindən kənarda qalmamış, sistemin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.

Ulu öndərin ədliyyə sahəsinə göstərdiyi böyük qayğının təzahürü olaraq onun 11 noyabr 2000-ci il tarixdə imzaladığı sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyətinə dair bir sıra mühüm sənədlər qəbul olunmuş, nazirliyə yeni vəzifələr həvalə edilmiş, strukturu təkmilləşdirilmişdir.

Müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısının 18 aprel 2006-cı il tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilmiş, habelə “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən “Ədliyyə orqanlarının inkişafı haqqında” 17 avqust 2006-cı il tarixli fərman imzalanmışdır. Dövlət başçısının 6 fevral 2009-cu il tarixli sərəncamı ilə “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı” təsdiq edilərək həyata keçirilmişdir.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlarına uyğun olaraq nazirlikdə, bölgələrdə və “virtual qəbul” məntəqələri vasitəsilə vətəndaşların qəbuluna, “Qaynar xətt” əlaqə mərkəzinə edilən müraciətlərə xüsusi diqqət yetirilir.

Eyni zamanda, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi “ASAN xidmət” çərçivəsində 20 milyondan artıq müraciətə baxılaraq vətəndaş məmnunluğuna nail olunmuşdur. Sevindirici haldır ki, təqdim edilmiş sənədlərin 40 faizdən çoxu ASAN mərkəzlərində fəaliyyət göstərən ədliyyə qurumlarının payına düşür.

Məhkəmə hakimiyyətinin müstəqilliyinə xidmət edən islahatlar uğurla aparılır. 2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə imtahanla seçilmiş, nəticədə hakim korpusunun 60 faizi təzələnmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmişdir.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə son 15 ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla aparılmışdır. Bunun nəticəsidir ki, hazırda respublikada ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir. Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında “Məhkəmə-Hüquq Şurası haqqında” yeni qanun qəbul olunmuş, “Məhkəmələr və hakimlər haqqında” qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir.

Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi” və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” fərmanı keyfiyyətcə yeni mərhələdə ölkəmizdə çoxşaxəli hüquq islahatları üçün baza rolunu oynamışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn bu mühüm fərman əsasında regionlarda yeni apellyasiya və inzibati-iqtisadi məhkəmələr yaradılmışdır.



Fərman əsasında, həmçinin Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuş, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Həmin fərmanın davamı kimi ölkə başçısının 17 avqust 2006-cı ildə imzaladığı “Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında” fərman ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir. Hazırda respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılmışdır. Hakimlərin seçimi prosesi Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə, şəffaf və demokratik şəraitdə həyata keçirilir. Son illərdə ümumilikdə 300-dən çox hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşdur. Bu prosesin beynəlxalq norma və standartlara tam cavab verdiyi, ədalətli və şəffaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunmuş, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə göstərilmişdir.

Məhkəmə-Hüquq Şurasının rəhbərliyi altında son illər hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin daha şəffaf, obyektiv, çevik mexanizmlərinin müəyyənləşdirilməsi ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırır. Cəmiyyətin məhkəmələrə olan inamı daha da möhkəmlənir, ölkəmizin beynəlxalq imici yüksəlir.

Ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına yeni nəfəs verən hadisələrdən biri də 27 dekabr 2011-ci il tarixdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında” sərəncamın imzalanması olmuşdur. Sərəncamda diqqəti cəlb edən məqamlar əsas etibarilə insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi üzrə araşdırma və tədqiqatların aparılması, xüsusilə, İnsan Hüquqlarına dair Avropa Konvensiyasının məhkəmə aparatı işçiləri tərəfindən öyrənilməsi, məhkəmə qərarlarının vaxtında və dəqiq icrasının təmin edilməsi məqsədi ilə icra tədbirlərinin zəruriliyi ilə bağlıdır.

Respublikamızda aparılan islahatlar nəticəsində qısa müddətdə əldə olunmuş nailiyyətləri yüksək dəyərləndirən Dünya Bankı ilə Ədliyyə Nazirliyi rəhbərliyinin təşəbbüsü ilə “Ədliyyə sektorunun müasirləşdirilməsi” adlı birgə layihə həyata keçirilir. Layihədə 18 məhkəmə binasının tikintisi, ümumiyyətlə bu sahədə infrastrukturun tamamilə yenilənməsi və ən müasir texnologiyaların tətbiqi üzrə tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında sərəncamı da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Yeni sistemin tətbiqi vətəndaşlara məhkəmələrə elektron formada müraciət ünvanlamaq, proses barədə məlumatları elektron daşıyıcıda operativ şəkildə əldə etmək, məhkəmə proseslərini audio-video və digər texniki vasitələrlə qeydə almaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradır.

Onu da deyək ki, mülki xarakterli işlərin məhkəmədənkənar həlli yolları axtarılmış, mediasiya institutunun yaradılması məqsədlə bir sıra addımlar atılmış, icra işlərinə xitam verilməsi və dayandırılması səlahiyyətləri icra məmurlarına verilmişdir. Mülki xarakterli işlərin böyük bir hissəsini əmr icraatı qaydasında baxılan tələblər təşkil edir. Bu sahədə beynəlxalq təcrübə göstərir ki, həmin işlərə məhkəmələr tərəfindən elektron qaydada, yaxud notariuslar tərəfindən icra qeydi aparılmaqla baxılması səmərəli nəticələr verir. Bununla əlaqədar məhkəmələrin iş yükünün azaldılması, işlərə daha qısa müddətdə baxılması məqsədilə yeni prosedurların tətbiqi ilə bağlı qanun layihələri hazırlanmışdır.

Həmçinin, dövlət başçısının təşəbbüsü ilə cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına səbəb olmuşdur. Cəza icra siyasətində mühüm institutlardan olan məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması ilə bağlı nazirlikdə yaradılmış xüsusi Komissiya tərəfindən fəaliyyəti dövründə 9 minə yaxın məhkum vaxtından əvvəl şərti azad olunmağa və ya daha yüngül rejimli müəssisəyə keçirilməyə layiq bilinmiş, məhkəmələr tərəfindən baxılmış həmin işlərdən 97 faizi müsbət həll edilmişdir.

Cəmiyyət tərəfindən rəğbətlə qarşılanan humanist tədbirlər, həmçinin cəza çəkən digər məhkumların islahına müsbət təsir göstərərək, onları qanunazidd hərəkətlərdən çəkinməyə sövq edir, haqqa, ədalətə inamı daha da artırır.

Möhtərəm Prezidentimizin humanizm siyasətinin təzahürü olaraq cari il fevralın 10-da imzaladığı “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” sərəncamı ölkədə cəza siyasətinə, cinayət qanunvericiliyinə baxışın yenilənməsinə, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsinə və dünyada mövcud olan mütərəqqi təcrübələrin tətbiqinə xidmət etməklə bu sahədə islahatların intensiv davamına rəvac vermişdir.

Ümumiyyətlə, Prezidentin qanunvericilik təşəbbüsü əsasında Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilmişdir ki, bura humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumetmə cəzalarının azaldılması daxildir.

Eyni zamanda, ölkə Prezidentinin sərəncamı ilə təsbit edilmiş Probasiya xidmətinin yaradılması üzrə mühüm addımlar atılmış, bu institutun əhəmiyyəti və yeniliyi nəzərə alınaraq Ədliyyə Akademiyasında müvafiq treninqlər keçirilmişdir. Xidmətin fəaliyyətinin səmərəli və mütəşəkkil təşkili məqsədilə möhtərəm Prezidentimiz tərəfindən ədliyyə fəaliyyəti ilə bağlı qanunvericiliyə mühüm dəyişikliklər edilərək nazirliyin aparatında ayrıca baş idarə – səlahiyyətli Probasiya xidməti yaradılmışdır. Sərəncamın əsas yeniliklərindən biri olan cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmişdir.

Bununla yanaşı, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan, o cümlədən ictimai işlər cəzasının effektiv icrası üzrə tədbirlər görülmüş, “elektron icra” sistemi vasitəsilə ictimai işlər cəzasını çəkən şəxslərə və icra prosesinə nəzarət gücləndirilmiş, bu cəzanın səmərəli tətbiqi məqsədilə qanunvericilik təkmilləşdirilərək Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli Qərarı ilə “İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası” təsdiq edilmiş, 2017-ci il 20 oktyabr tarixli Qanunla İnzibati Xətalar Məcəlləsinə ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslərin məsuliyyəti ilə bağlı dəyişikliklər olunmuşdur.

Sərəncamda verilmiş tapşırıqların icrası çərçivəsində, həmçinin məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın qanunvericiliyin tələblərinə uyğun çəkilməsi, rejim qaydalarına ciddi riayət olunması ilə bağlı tədbirlər müəyyən olunmuş, habelə mövcud istehsal sahələrinin bərpası və yenilərinin yaradılması, bu fəaliyyətə sahibkarların, iş adamlarının daha geniş cəlb olunması ilə bağlı mühüm addımlar atılmış, məhkumların istehsal etdikləri məhsulların satış dairəsini genişləndirmək məqsədi ilə müasir informasiya texnologiyaları tətbiq olunmaqla “Həbsxana incəsənəti” adlı onlayn market yaradılmışdır.

Respublikamızın yeni qlobal çağırışlara uyğun davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həllində, humanizm, tolerantlıq ideya və prinsiplərinin uğurla inkişaf etdirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti də xüsusilə qeyd olunmalıdır.

Bütün bu böyük uğurların qazanılmasında Ədliyyə Nazirliyi rəhbərliyinin dövrün tələblərinə uyğun olaraq həyata keçirdiyi səmərəli fəaliyyətini və göstərdiyi ardıcıl səyləri xüsusi qeyd etmək lazımdır. Ölkə başçısının qəbul etdiyi qərarların qüsursuz icra edilməsi, konstitusiyanın tələblərinə uyğun olaraq qanunun aliliyinin təmin olunması və Azərbaycan Ədliyyəsinin dünya hüquq sisteminə uğurlu inteqrasiyası nazirlik rəhbərliyinin qətiyyətlə həyata keçirdiyi ardıcıl və səmərəli tədbirlər nəticəsində mümkün olmuşdur.

Bütün bunlar respublikamızda hərtərəfli tərəqqinin və yüksəlişin bariz nümunəsi olmaqla xalqımızda yüksək iftixar hissi doğurur. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının praktik nəticələrini hər bir vətəndaş öz gündəlik həyatında hiss edir və minnətdarlıqla qarşılayır.

***Vüsal CƏBRAYILOV,***
***Cəlilabad Rayon Məhkəməsinin sədri***